# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ VƏ MİLLİ MƏTBUATIN MÖVQEYİ

2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış zəfər salnaməsi kimi daxil oldu. Bu müharibə yalnız cəbhədə deyil, informasiya məkanında da aparılırdı. Döyüş meydanında olduğu kimi, informasiya cəbhəsində də qətiyyətli, dəqiq və prinsipial mövqe vacib idi. Milli mətbuat bu mühüm tarixi dövrdə öz vətənpərvər mövqeyi, çevik fəaliyyəti və informasiya təhlükəsizliyinin təminindəki rolu ilə ön sıralarda yer aldı.

***Milli mətbuatın informasiya cəbhəsindəki rolu***

Vətən müharibəsi dövründə Azərbaycan mətbuatı – istər dövlətə məxsus, istərsə də özəl media qurumları – bir növ informasiya əsgəri rolunu oynadı. Cəbhədən gələn xəbərlərin operativ, düzgün və koordinasiyalı şəkildə yayılması informasiya müharibəsində üstünlük qazandıran əsas amillərdən biri oldu.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi sıx birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi. Ali Baş Komandan İlham Əliyevin gündəlik çıxışları, xarici mediaya verdiyi müsahibələr və digər rəsmi məlumatlar operativ şəkildə mediada yayımlandı. Bu, cəmiyyətin məlumatlandırılması ilə yanaşı, beynəlxalq ictimai rəyə təsir baxımından da mühüm rol oynadı.

***Media milli həmrəylik yaratdı***

Milli mətbuat həm də cəmiyyətin birliyini, həmrəyliyini təmin edən əsas vasitələrdən birinə çevrildi. Televiziya, radio, qəzet və internet portallarında yayımlanan verilişlər, məqalələr və reportajlar xalqın ruh yüksəkliyini saxlamaqla yanaşı, vətənpərvərlik duyğularını gücləndirdi. Sosial şəbəkələrdə yayılan maarifləndirici və ruhlandırıcı məzmunlar cəbhədə döyüşən hərbçilərə dəstək oldu.

***Dezinformasiyalara qarşı mübarizədə milli media***

44 gün ərzində düşmən tərəf və bəzi xarici dairələr tərəfindən yayılan saxta və manipulyativ xəbərlərə qarşı milli mətbuat qətiyyətlə mübarizə apardı. Azərbaycan media qurumları rəsmi mənbələrə istinad edərək məlumatların dəqiqliyini qorudu və dezinformasiyaların qarşısını almaqda mühüm rol oynadı.

**Jurnalistlərin fədakarlığı**

Müharibə dövründə jurnalistlərimiz təhlükəli bölgələrə – cəbhəyanı ərazilərə ezam olundu, ön cəbhədən reportajlar hazırladı. Onlar informasiya savaşının görünməyən qəhrəmanları idilər. Bəzi jurnalistlərimiz həyatlarını belə təhlükəyə ataraq, obyektiv informasiyanı ictimaiyyətə çatdırdılar. Bu, media peşəkarlığının və milli vətənpərvərlik hissinin bariz nümunəsi idi.

Beləliklə 44 günlük Vətən müharibəsi göstərdi ki, güclü ordu ilə yanaşı, milli ruhlu və peşəkar media da dövlətin dayaq sütunlarından biridir. Bu dövrdə milli mətbuat sadəcə xəbərlər paylaşmadı, həm də müharibənin ideoloji-siyasi cəbhəsində mübarizə apardı, qələbə ruhunu yaşatdı, haqq səsimizi dünyaya çatdırdı.

Milli mətbuatımızın 44 günlük Vətən müharibəsində göstərdiyi mövqe, gələcək nəsil jurnalistlər üçün həm peşəkarlıq, həm də vətənpərvərlik nümunəsi kimi əhəmiyyət daşıyır.